# Bu gün müstəqil Azərbaycanın günüdür

Azərbaycan öz tarixində Nadir şahdan sonra torpaq əldə edə bilməyib, əksinə, torpaqları əlindən alınıb, dövləti parçalanıb, müstəqil Azərbaycanın varlığına son qoyublar. Nəhayət, 300 ildən sonra Romanovlar sülaləsi devrilib və Azərbaycan xalqı da 1918-ci ildə müstəqilliyini elan edib. Bu, müsəlman Şərqində ilk cümhuriyyət olsa da, onun ömrü 23 ay çəkib. Həmin müddət ərzində ondan nə qədər torpaqlar qopartmağa cəhd göstəriblər və bəzən buna nail də olublar.

Yenidən 70 illik sovet dönəmi və bu dövrdə Azərbaycandan kifayət qədər torpaqlar qoparılıb və qoparılan torpaqların nəticəsi olaraq Naxçıvan Azərbaycandan ərazi baxımından ayrı düşüb. Azərbaycanın Ermənistanla sərhəd ərazilərində də kifayət qədər torpaqları sovet Rusiyasının diktəsi ilə ermənilərə verilib. Son faciə isə Qarabağın dağlıq hissəsinin və ətraf rayonların Ermənistan və havadarları tərəfindən işğal olunması idi.

Həmin illər mürəkkəb dövr idi. Yalnız 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə həmin çətinliklər aradan qaldırıldı. Azərbaycanın varlığına son qoyulmasının, vətəndaş müharibəsi təhlükəsinin qarşısı alındı və dövlətin ümumi inkişafı üçün Ümummilli Lider Heydər Əliyev mümkün olanı etdi. Təbii ki, düşmən, havadarları güclü idi. Ancaq bütün bunlara baxmayaraq, Heydər Əliyev balanslaşdırılmış siyasət həyata keçirməyə nail oldu. Bir tərəfdən atəşkəs, digər tərəfdən "Əsrin müqaviləsi" Azərbaycanı qoruyub saxladı.

2003-cü ildə cənab İlham Əliyev hakimiyyətə gəldi - xalqın istəyi, arzusu ilə dövlət başçısı seçildi. Prezident İlham Əliyev həm ölkəni inkişaf etdirdi, həm güclü ordu yaratdı, həm də dünyaya elan etdi ki, Azərbaycan bu işğalla barışmayacaq. Bu sözləri vaxtilə Ümummilli Lider Heydər Əliyev demişdi və xalqı əmin etmişdi ki, işğal altında olan bütün ərazilərimiz azad olunacaq. Doğrudan da, İlham Əliyev o azadlıq mücadiləsinə başladı və bu mücadilənin ilk bünövrəsi 2016-cı ilin Aprel döyüşlərində qoyulanda Azərbaycan xalqı artıq başa düşdü ki, biz Birinci Qarabağ müharibəsindən nəticə çıxarmışıq. Ali Baş Komandan göstərdi ki, nəyi nə vaxt və necə etməyi yaxşı bilir.

2020-ci ilin 44 günlük Vətən müharibəsi isə dövlət başçısının həm qətiyyətini, həm gücünü və cəsarətini, həm də fitri istedadını ortaya qoydu. Bəzi dövlətlər nə qədər çabalasalar da, nə qədər təhdid etsələr də, nə qədər təzyiqlər göstərsələr də, Ali Baş Komandan öz yolundan dönmədi. Prezident xalqı "dəmir yumruq" kimi birləşdirib düşməni darmadağın edərək işğal altında olan Azərbaycan torpaqlarını azad etdi.

Bəli, belə bir qəhrəmanlıq göstərən Ali Baş Komandan Azərbaycan tarixinə şərəfli səhifə yazdı. Xalqı müstəqillikdən sonra ilk dəfə olaraq qaliblər sırasına çıxardı. Ordumuzu dünyanın ən nümunəvi ordularından birinə çevirdi, eyni zamanda dünyanın bədxah qüvvələrini susdurdu. Ali Baş Komandan dünyanı inandırdı ki, bütün bu hədyanlar heç bir nəticə verməyəcək. Bununla yanaşı, çoxlu dostlar, Azərbaycanın haqqını müdafiə edən dövlətlər qazandı. Türkiyə Cümhuriyyəti bu cərgədə əvvəlki illərdə olduğu kimi, yenə birinci oldu.

Müzəffər Ali Baş Komandan bu gün Azərbaycan tarixində şərəfli zirvədədir. Çünki məhz onun qətiyyəti hesabına Azərbaycan Ordusu 2023-cü il sentyabrın 19-20-də antiterror əməliyyatını uğurla başa çatdırdı və 100 ildən sonra "Dağlıq Qarabağ" qurumu tariximizdən silindi, separatçı qüvvələr darmadağın edildi. Azərbaycan bütövləşdi və bütün ərazilərimizdə üçrəngli bayrağımız dalğalanmağa başladı. Bu, birmənalı olaraq Ali Baş Komandanın xidmətidir. Bu, İlham Əliyevin gücünün göstəricisidir.

Bu şərəfli zirvəni fəth edən İlham Əliyev həm də Azərbaycan xalqını birləşdirə bildi. Xalq birləşəndə, xalqın gücü bir olanda onun qarşısında heç bir qüvvə dayana bilməz. Azərbaycanın ərazisi böyük, əhalisi çox olmasa da, güclü dövlətdir. Çünki Azərbaycanın dövlət başçısı iradəli və cəsarətli bir liderdir. Xalq liderini sevir, ordu Ali Baş Komandanın əmrinə müntəzirdir.

İlk dəfə olaraq 2024-cü il fevralın 7-də prezident seçkiləri bütövləşmiş Azərbaycan ərazisində keçiriləcək. Çünki 1991-ci ildən sonra Azərbaycanın bütün ərazisində nə prezident, nə parlament, nə də bələdiyyə seçkiləri keçirilib.

Bu gün Ali Baş Komandan İlham Əliyev cənablarının ad günüdür. Bu günü bütün Azərbaycan xalqı və xalqın uğuruna sevinənlər qeyd edirlər. Bu doğum günü heç bir doğum gününə bənzəmir. Bu, bütövləşmiş Azərbaycanın günüdür. Çünki bütövləşməyi, suverenliyi bizə bəxş edən Ali Baş Komandan İlham Əliyevdir.

**Anar İSGƏNDƏROV,**
*Milli Məclisin deputatı*



Azərbaycan.- 2023.- 24 dekabr, № 282.- S.9.